# Mürsəl İrəvanlı – 80

# Kim deyir ki, sənətkara qocalıq var?

İlqar MÜZƏFFƏROĞLU,
Goranboy rayonu, Dəliməmmədli şəhəri
AJB-nin üzvü

*Zəmanəmizin canlı arxivi, ensiklopedik biliyə malik olan Mürsəl İrəvanlı ilə görüşməli idik. Görüşdük də. Səhhətində bir az problem olduğunu hiss etdik. Ömrü uzunu sinəsində çıxıb saxladığı, gecəgündüz qayğısını çəkdiyi, oddansoyuqdan qoruduğu, xalqına, Vətəninə qırılmaz tellərlə bağlı olan qəlbi deyəsən ona 'Naxələf'lik etmişdi. Ağrısa da söhbətləşməyə imkan tapdıq. Zarafatlarından qalmırdı. Ürəyi sözünə baxmasa da, heç vecinə almırdı bu ağrı-acını... Elə bu zarafat üstündə də bizə XIV əsrin istedadlı, məhəbbət şairi Hafiz Şirazi ilə bağlı bir hadisəni xatırlatdı:*



## Təqdimat əvəzi:

***Ulu Tanrı vergisi verilib Mürsəl İrəvanlıya.***
***Maraqlı adamdır, həmsöhbət kimi.***
***Az-çox rast gəldiyimiz təvazökar müdriklərdəndir bu insan oğlu.***
***Həlimliyi var, işıqlı siması var, ağayana hərəkətləri də öz yerində...***
***Konkretliyi var, dəqiqliyi var. Sözlərində çəki, kəlmələrində dolğunluq var.***
***Ən vacib insani keyfiyyətlərə malikdir bu dünyagörmüş kişi.***
***Yeri gələndə duzlu-məzəli söhbətlərindən qalan deyil. Düz söz deməkdən çəkinən deyil. Elə buna görə də daxili ciddiliyi, mənəvi-ruhi intizamı heç vaxt pozulan deyil.***
***Mürsəl İrəvanlını yazılaraq bizə belə tanıdıblar. Real həyatda da beləcə gördüm, beləcə tanıdım ağsaqqal yazarı... canlı tarixi...***

- Zəmanəsinə görə Hafiz Şirazi də mənim kimi həyat sürüb. Uşaqlıqdan yetim qalıb. Onun-bunun himayəsində böyüyüb, acınacaqlı həyat sürüb. Ancaq buna baxmayaraq xalqını çox sevib, daim onu düşünüb. Xalq yolunda canından keçməyə belə hazır olub. O, sözün həqiqi mənasında əsl vətəndaş kimi həyatda yaşayıb. Mənim güzəranım da ona bənzəyir. Elə bil altı əsrdən sonra yenidən dünyaya gəlib deyir: "Həmişə xalqın arasında ol, tariximizi, keçmişimizi onlara anlat".

*Mən də qulaq asıram. Və həmişə də əhdimə sadiq qalacağam. Ölənə kimi... Məndən sonra bəlkə xatırlandım. Bəlkə də kiməsə etdiyim xeyirxahlıq bir gün öz bəhrəsini verdi.*

Günlərin bir günü Teymurləng gəlib Şiraz şəhərinin çevrəsində dayanır ki, şəhəri tari-mar edəcəm. Qoşununun qarşısını almaq üçün heç bir tədbir mümkün deyilmiş. Hafiz Şirazi o zaman çox məşhur imiş. Xalqın qarşısına çıxıb deyir ki, mən gedirəm xaqanın yanına, ondan iltimas eyləyərəm ki, bizim Şirazı dağıtmasın. Çünki o çılpaq səhranın içində bir gül dəstəsidir, bu bir şəhərdir ki, bütün dünyada bərabəri yoxdur. Camaatın inamı yoxmuş, Hafizə yəqin ki, xaqan əhəmiyyət verməz. Gedir. Teymur onu qəbul edir, sözlərini dinləyir və fikrindən vaz keçir.

Bir bax, gör ki, Teymur kimi əzazil, qaniçən bir xaqan yaradıcı insanın şərəfinə fikrindən daşınıb. Bir də şairin sözünün sanbalına bax ki, xalqa necə xidmət eləyib.

Yaşı 80-i ötmüş müdrik yazıçı ilə həmsöhbət olmağın nə qədər şirin anları olarmış? Mürsəl müəllim, nədən və necə danışmağı da irəlicədən bilirmiş.

- Zəngin həyatınızda peşmançılığını çəkdiyiniz bir şey olubmu? Ümumiyyətlə, razısınızmı həyatınızdan?

Klassik bir şeir var. Onunla da sualınıza cavab vermək istəyirəm.

**Xatirdən çıxmasın,**
**dünyaya üryan gəldiyin!**
**Xəlqi xəndan eyləyib,**
**giryanı nalən gəldiyin!**
**Xəlqi giryan eyləyib,**
**hadani-xəndan etdiyin!**

Şeirin məzmunu belədir ki, adamın özü dünyaya ağlaya-ağlaya, lüt-üryan gəlir. Ətrafındakıları sevindirir, güldürür bu gəlişiylə. Sonra şeirdə deyilir ki, çalış, fəzilət qazan, elə ad çıxar ki, sən dünyadan köçəndə xalq arxanca ağlasın ki, sən gülə-gülə gedəsən.

***- Sizin xronoloji hafizə qabiliyyətiniz barədə hər yerdə danışırlar. Həyatınız boyu cəmiyyətdə baş verən hadisələri bütün təfsilatı ilə danışmaq bacarığınız barədə də uzun-uzadı söhbətlər gedir. Ümumiyyətlə, sənət aləminə gəlişiniz bütün bunlarla bağlı deyil ki?***

*Nəzərimdən heç nə yayına bilməz. Uşaqlığımdan tutmuş bu günə qədər nə baş veribsə təfsilatı ilə yadımda, gözlərim önündədir. Bəlkə də bu alın yazısı, qismət payıdır, bilmirəm...*

Elə sənətkarlar var ki, zamanın, dövrün tələbləri onu öz qəlbinə salır, yaradıcılığını cılızlaşdırır, dünyagörüşünü məhdudlaşdırır. Mürsəl İrəvanlı üçünsə dövr, zaman məfhumu olmayıb. Onun yaradıcılığı bu qəlbi parçalayıb. Mürsəl İrəvanlı istədiyi anda ürəyindəkiləri deyə bilib. Çünki kiminsə xoşuna gəlmək və yaxud gəlməmək xətrinə yazmayıb Mürsəl müəllim.

- Mürsəl müəllim, uşaqlıq çağları yaşadığın illərin bünövrəsi sayılır. Çətin də olsa bir az da uşaqlıq illərinizə qayıdaq.

*Bir çox yaşıdlarım kimi mənim də uşaqlığım dolanbac, keşməkeşli yollardan keçib. İkinci cahan müharibəsi ömrümdə silinməz naxışlar salıb. Çox çətin zəmanə idi. Taxıl, arpa çörəyinə möhtac idik və yaxşı ki, mən tək deyildim. Elə gələn toy-bayramdı. Çətinliklə də olsa məktəbə getdim. Bir qarın ac, bir qarın tox mübarizə apardım. Çətinliyə dözdüm. Heç kimə əl açmadım. Oxudum, özü də yaxşı oxudum. Müəllimlərin etimadını doğrultdum.*

Təhsilimi davam elətdirmək üçün Moskvaya getdim. Hüquq fakültəsinə qəbul olundum. Ədəbiyyata gəlməyim tələbəlik illərinə təsadüf edir. Əvvəlcə kiçik hekayə, oçerklərlə dövrü mətbuatda çıxış etdim. Mənim bir yazıçı kimi püxtələşməyimə yardımçı olan Boris Polevoy oldu. O vaxt bu istedadlı yazıçı (Yunost) jurnalının baş redaktoru idi. Mənə arxa, dayaq oldu, yazmağa həvəsləndirdi. Dalbadal povestlərim, romanlarım nəşr olundu. Mən təhsil aldığım universitetdə altmış doqquz min tələbə vardı. Onların təlim-tərbiyəsi ilə on doqquz min müəllim, professor məşğul idi.

1963-cü ildə SSRİ Yazıçılar İttifaqının sədri Sergey Markov məni yanına dəvət etdi. Xeyli söhbətdən sonra mənə sual verdi ki, sən hələ ittifaqın üzvü deyilsən?

Mən də zarafata salıb dedim ki, Qoqol yazıçılar birliyinin üzvüydü?

Onun yazdığı əsərlər oxucuların stolüstü kitabı idi. O, dedi ki, Qoqolun vaxtında yazıçılar ittifaqı yox idi. Ancaq kəskin senzura var idi. Ayrılanda dedi ki, get dostlarının yanına onlardan zəmanət al, gətir mənim yanıma. Səni üzvlüyə keçirəcəyəm. Bu gənc yaşında sən elə əsərlər yazırsan ki, yaşlı yazarlar belə əsərlər yazmaqda çətinlik çəkərlər.

- Yaradıcılığınızda daha çox tarixi mövzulara yer ayırırsınız. Bu nədən irəli gəlir?

*Mən gənclikdən tarixi şəxslər barəsində çox oxumuşam, onların həyatını dərindən öyrənmişəm. Bunun da nəticəsində bir çox əsərlər əmələ gəlib. Məsələn, 'Onun qanı ürəyimdədir', 'Çay niyə səslənir?', 'Ata qatili', 'Ata sən dəli olmusan', 'Albalı çiçəyi', 'Tənha söyüd ağacı', 'Axan qanın izi ilə', 'Lalə kafesində qətl" kimi əsərlər meydana gəlib. 'Albalı çiçəyi" romanı 1976-cı ildə M.Qorki adına beynəlxalq mükafatına layiq görülüb. Buna görə görkəmli yazıçı Yulyan Semyenova minnətdaram. Allah onun ruhunu şad eləsin.*

*Əlavə olaraq qeyd edim ki, Qarabağ müharibəsi ərəfəsində dünya erməniçiliyinə qarşı müxtəlif mətbu orqanlarında yüzlərlə məqalə yazmışam. Mənim ürəyim sözlə doludur. Çox sağ ol ki, gəldiniz, məni yad elədiniz. Tez-tez gəlin, dərdimiz ürəyimizdə qübar etməsin.*






**"Zəmanəsinə görə Hafiz Şirazi də mənim kimi həyat sürüb. Uşaqlıqdan yetim qalıb. Onun-bunun himayəsində böyüyüb, acınacaqlı həyat sürüb. Ancaq buna baxmayaraq xalqını çox sevib, daim onu düşünüb. Xalq yolunda canından keçməyə belə hazır olub. O, sözün həqiqi mənasında əsl vətəndaş kimi həyatda yaşayıb. Mənim güzəranım da ona bənzəyir. Elə bil altı əsrdən sonra yenidən dünyaya gəlib deyir: "Həmişə xalqın arasında ol, tariximizi, keçmişimizi onlara anlat"."**